**Koreyanın Daejon (Taecon) şəhərində "Milli Hesablar Sistemi 2008" adlı regional treninq kursu keçirilmişdir**



Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinin baş məsləhətçisi Sevinc Fəttahova 2013-cü il oktyabrın 14-dən 18-dək Koreyanın Daejon (Taecon) şəhərində BMT-nin Asiya və Sakit Okean hövzəsi üzrə Statistika İnstitutunun Koreya Statistika İdarəsi ilə əməkdaşlığı çərçivəsində təşkil olunmuş "Milli hesablar sistemi 2008" adlı regional treninq kursunda iştirak etmişdir.

Treninq kursunda Azərbaycan, İndoneziya, Fici, Çin Xalq Respublikası, Çinin xüsusi inzibati rayonu Honqkonq, Monqolustan, Banqladesh, İran və Sinqapurun milli statistika orqanlarının, eləcə də Koreya Statistika İdarəsinin mütəxəssisləri iştirak etmişlər.

Regional treninq kursunun keçirilməsində əsas məqsəd MHS-2008 konsepsiyası əsasında Milli hesablar statistikasının tərtib edilməsi üzrə nəzəri və təcrübi məlumatlarla iştirakçıları tanış etmək, Milli Hesablar statistikasının göstəricilərinin beynəlxalq standartlarına dair iştirakçıların biliklərinin artırılması, Mərkəzi Bank və Dövlət maliyyəsi statistikasının göstəriciləri ilə Milli Hesablar sisteminin əlaqələri barədə nəzəri və təcrübi məlumatlarla iştirakçıları tanış etmək və eyni zamanda ölkələrin qarşılaşdıqları problemlər və digər məsələlərlə bağlı müzakirələr aparmaqdan ibarət olmuşdur.

Kursun proqramı mühazirələr, praktiki məşğələlər, ölkələrin təqdimatları və aktual suallara həsr olunmuş müzakirələr formasında təşkil edilmişdir. Mühazirələr MHS -2008 haqqında ümumi məlumat; MHS-1993-lə müqayisədə edilən dəyişikliklər; İnstitusional sektorlar və onların qurulması; Axınlar, ehtiyatlar və onların qeydiyyata alınma qaydaları; Mal və xidmətlərlə iqtisadi əməliyyatlar; Maliyyə aktivləri və maliyyə öhdəlikləri ilə bağlı iqtisadi əməliyyatlar kimi mövzuları əhatə etmişdir.

Kursda MHS-2008–in ümumi prinsipləri, hesabların strukturu, cari və yığım hesabları, iqtisadi və institusional vahidlər, axınlar, əməliyyatlar və ehtiyatlar, MHS- in sərhədləri, MHS- in yenilənməsi səbəbləri haqqında məlumat verildi. Cari, yığım hesabları, aktivlər və passivlər balansı, hesabların forması, hesablardakı balanslaşdırıcı maddələrin növbəti hesabdakı yeri, sərəncamda qalan gəlirlər, qənaət kimi göstəriciləri təhlil etmək üçün balanslaşdırıcı maddələrin əhəmiyyətindən bəhs edildi, istehsal, istehlak və yığım hesabları (maliyyə, kapital) barədə məlumat verilmişdir.

Tədbirin sonunda əhatə olunmuş mövzuların mənimsənilmə səviyyəsinin yoxlanılması məqsədilə kursun təşkilatçıları tərəfindən test keçirilmişdir.